Əsmər Hüseynova34

BƏKİR NƏBİYEV POEZİYA TƏNQİDÇİSİ KİMİ

(Keçən əsrin 50-ci illərinin poetik təcrübəsi əsasında )

Akademik Bəkir Nəbiyev Azərbaycan tənqid və ədəbiyyatşünaslığının keçən əsrin 50- ci illərində sənət və yaradıcılıq aləminə gəlmiş nümayəndələrindən biri kimi ədəbi prosesin inkişaf meyilləri, milli bədii-tarixi təcrübənin keçmiş olduğu inkişaf mərhələləri, bu mərhələlərin formalaşmasında müstəsna mövqeyə malik olan ayrı-ayrı görkəmli sənətkarların ədəbi irsinin tədqiqisahəsində məhsuldar fəaliyyət göstərmiş alimlərdən biridir.Altmış ildən artq bir dövrü əhatə edən elmi-nəzəri fəaliyyətində ədəbiyyat tarixçiliyi sahəsində aparılan araşdırmalarla yanaşı, ədəbi əlaqələr, tərcümə məsələləri, uşaq ədəbiyyatının yaradıcılıq problemləri, mühacirət ədəbiyyatının tanınmış nümayəndələrinin həyat yolu və poetik irsinə həsr olunan fasiləsiz elmi axtarışlar alimin geniş erudisiyası və tədqiqatçılıq imkanları barədə kifayət qədər əyani təsəvvür yaradır. Şübhəsiz ki, bu sadalanan sahələr hələ bir tənqidçi-ədəbiyyatşünas kimi Bəkir Nəbiyevin elmi-nəzəri siqləti və miqyas genişliyi ilə ilə seçilən fəaliyyərinin bütünlüklə də əks etdirmir. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Bəkir Nəbiyev, hər şeydən əvvəl, professional tənqidçi idi. Tənqidçilik onun müasir ədəbi prosesin inkişaf dinamikası, ayrı-ayrı fakt və hadisələri haqqında obyektiv və prinsipial mövqedən fikir yürütmək, çağdaş bədii düşüncənin fəlsəfəsini açmaq, bu xüsusda sənət meyarlarınaəsaslanan təhlil və ümumiləşdirmələr aparmaq vasitəsi idi. Bu mənada tənqidçilik Bəkir Nəbiyevin ümumi elmi axtarışlarının mahiyyətində dayanan mühüm xüsusiyyətləri də özündə parlaq şəkildəəks etdirməkdədir. Daha dəqiq ifadə edilsə, o hətta ədəbiyyat tarixçiliyi istiqamətində apardığı araşdırmalarında və yaxud uşaq ədəbiyyatının yaradıcılıq problemlərindən bəhs edən yazılarında, ədəbi əlaqələr, istiqlal poeziyasının tanınmış nümayəndələrinin yaradıcılıq irsini tədqiq edən monqrafiyalarında da tənqidçilik missiyasına sadiq qalır. Professor Şamil Salmanov "Tənqidçi və ədəbi proses" (Akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri) monoqrafiyasında alimin elmi irsində nəzərə çarpan bu səciyyəvi məziyyətləri dəyərləndirərək belə bir obyektiv qənaətə gəlirdi: "Bəkir Nəbiyevin bir tənqidçi və ədəbiyyatşünas kimi fərdi yaradıcılıq xüsusiyyətini tənqidin və ədəbiyyatşünaslığın onun fəaliyyətində üzvi, ayrılmaz vəhdət təşkil etmişdir. O, belə demək mümkündür ki, tənqidçi olduğu qədər həm də ədəbiyyat tarixçisi və nəzəriyyəçisidir. Tarixilik və nəzərilik onun tənqidində də güclüdür. Lakin eyni zamanda o, ədəbiyyatşünaslıq tədqiqatlarında da öz tənqidçi xassəsini qoruyub saxlayır: ədəbi-tarixi fakt və prosesləri tənqidçi mövqeyindən, tənqidçi ehtirası ilə mənimsəyir və qiymətləndirir."(1; s.48)

Bəkir Nəbiyevin tənqidçilik fəaliyyətini şərti olaraq poeziya, nəsr, dramaturgiya və incəsənət yönümlü digər sahələrə ayırmaq olar. Poeziya tənqidinə maraq qədər Bəkir Nəbiyevin elmi fəaliyyətində davamlı və sistemli xarakter daşımış ikinci bir yaradıcılıq sahəsini təsəvvür etmək çətindir. Keçən əsrin 50-ci illərindən başlayaraq üçüncü minilliyin ilk onilliyinə qədər olan böyük bir dövr ərzində şeirin mövzu və ideya-sənətkarlıq məziyyətlərini ümumiləşdirmək, bu prosesdə fəal iştirak edən qələm sahiblərinin yaradıcılıq axtarışları barədə yekdil qənaət yaratmaq tənqidçinin ədəbi-tənqidi məqalələrində əsas məqsəd və qayəyə çevrilirdi. Elmi-nəzəri fəaliyyətinin başlanğıc mərhələsi olan 50-ci illərdə Bəkir Nəbiyev məhsuldar yaradıcılıq axtarışları aparır, cari ədəbi prosesin problem xarakterli məsələlərinin izah və şərhi istiqamətində fəal və məhsuldar fəaliyyət göstərir. Akademik Nizami Cfərov bu mərhələni alimin yaradıcılıq axtarışları üçün oynamış olduğu məxsusi rolu belə səciyyələndirir: "...50-ci illərdə, yəni iyirmi yaşından 30 yaşına qədərki dövrdə müxtəlif mətbuat orqanlarında 100-dən artıq elmi, elmi-publisist məqaləsi çap olunduqdan sonraBəkir Nəbiyev "F.Köçərlinin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir."(2; s.189-190) Tənqidçinin poeziyaya həsr olunan ilk məqaləsihələ universitet tələbəsi ikən 1952-ci il fevral ayının 15-də "Ədəbiyyat qəzeti"ndəOsman Sarıvəllinin eyniadlı poeması haqqında dərc etdirdiyi "Ana" poeması" adlıyazıdır. Ədəbi tənqidin geniş yayılmış janrlarından olan resenziya kimi işıq üzü görən bu yazı ilk qələm təcrübələrindən olmasına baxmayaraq Bəkir Nəbiyevin konkret bir poetik nümunə haqqında ümumiləşdirmələr aparmaq, şairin mövzu və sənətkarlıq axtarışları barədə yekdil qənaət yaratmaq meyli özünü bütün tərəfləri ilə nümayiş etdirirdi.

Müəllif Osman Sarıvəllinin epik səpkidə qələmə aldığı bu poemanı ilk təşəbbüs kimi dəyərləndirməklə yanaşı, yaradıcılıq prosesində şairin rastlaşdığı çətinliklərə də diqqəti yönəldir, nöqsanları obyektiv və prinsipial mövqedən nəzərə çatdırırdı. "Ana" poemasının içtimai mövzuda yaranan bir əsər kimi təhlil edən müəllif kapitalizm dünyasında-Amerika kimi bir dövlətin timsalında baş verən hadisələri, insanı qayğılandıran və əndişələr içərisində saxlayan məqamları epik şeirin əsas mövzu və münasibət predmeti seçilməsini sənətkar mövqeyinin fəallığı kimişərh olunması obyektiv səciyyə daşıyırdı. Tipik kapitalist ölkəsindəki hərc-mərclik, insan haqlarının addımbaşı tapdanılmasını ana obrazının-Nellinin vasitəsilə açılışı da bu mənada təsadüfi hesab edilmir. Bununla bərabər, poemanın ideya-sənətkarlıq baxımından gözədən yayınmayanqüsurları tezis şəklində ümumiləşdirmək də tənqidçinin təhlil və mülahizələrində qabarıq nəzərə çarpır. Məsələn, ana surətinin timsalında baş verən tərəddüd və ziddiyyətlərə tənqidçinin münasibəti də bu baxımdan birmənalı şəkildə müsbət səciyyə daşımır. Tənqidçinin harada, hansı coğrafi məkanda yaşamasından, hansı irqi-dini mənsubiyyətdən asılı olmayaraq ana xislətinə xas olan xüsusiyyətlərdən çıxış edərək əsərdə cərəyan edən hadisələrə, konkret situasiyalara münasibət bildirməsi diqqəti cəlb edən məziyyətlərdən hesab oluna bilər. O belə məqamlardan çıxış edərək poemada məntiqi ardıcıllığın gözlənilməməsinin Nelli surətinin xarakter kimi bütövlüyünə gətirdiyi natamam məqamlaramünasibət bildirərək belə bir qənaətə gəlirdi:"Birinci nöqsan poemanın əsas qəhrəmanı-ana surətinin natamamlığındadır. Poemanın ilk səhifələrində ananı mübarizədə tərəddüd göstərməyən, öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirən fədakar bir qadın kimi tanıyırıq. Lakin mister Brikerin uşaq almağa gəldiyi səhnədə ana çox müti, hətta balalarını satmağa razı olan bir qadın kimi verilir. Xarakterin belə "əlüstü" dəyişməsi oxucuları inandırmır".(3)Poemanın səhifələrində dil-üslub və sənətkarlıq məsələləri ilə bağlı nöqsanların inandırıcı surətdə müəllifin diqqətinə yönəldilməsi tənqidçinin barışmaz mövqeyindən xəbər verirdi.Belə bir məziyyəti odövrün gənc tənqidçisi olan müəllifin Mədinə Gülgünün "Yadigar üzük "poeması haqqında irəli sürülən mülahizələrinə də şamil etmək olar. Bəkir Nəbiyev bir şair kimi Mədinə Gülgünün mövzu və ideyalar aləminin genişliyi məsələsi üzərində ətraflı dayanmaqla, istər ölkə daxilində baş verən müxtəlif xarakterli hadisələrə, istərsə də Cənubi Azərbaycanda və dünya miqyasında azadlıq və istiqlaliyyət uğrunda aparılan mübarizələrə həsr olunan şeirlərini ictimai məzmun və mündəricəsinə görə təqdir edir, bu poetik

34 Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin elmi işçisi e. posta: esmer 74. 17 @ mail. ru.

nümunələri fəal şair mövqeyni qabarıq nümayiş etdirən faktlar kimi nəzərdən keçirir. Bununla yanaşı, Bəkir Nəbiyev "Yadigar üzük" kitabındakı şeirlərdə, xüsusən kitabın ad və sərlövhəsinə çevrilən eyniadlı poemada rast gəlinən qüsurları da ciddi və kifayət qədər inandırıcı şəkildə irəli sürməyə müvəffəq olur. Fikrimizi daha əyani şəkildə təsdiqləmək üçün tənqidçinin kitabdakı "Tarla düşərgəsində" adlı şeirə tutduğu iradları nəzərdən keçirək: "Etiraf etmək lazımdır ki, oxucular nə bu şeirlərdəki "ürəklərin döyüntüsünə, nə də şairənin inandırmağa çalışdığı başqa şeylərə inanmır. Çünki bu sözlərin vəzn və qafiyə xatirinə işlədildiyi ilk baxışda aydın olur. Deyə bilərlər ki, nə üçün başqa cəhətlərdən deyil, məhz təkrarlardan bu qədər bəhs olunur? Hər şeydən əvvəl ona görə ki, təkrar bu iki şeir üçün səciyyəvi nöqsandır. Bir də ona görə ki, gətirdiyimiz misallar Mədinənin son şeirləri üzərində məsuliyyətlə işləmədiyini sübut edir. Belə olduğu üçün də həmin şeirlər sənətkarlıq cəhətdən yüksək yüksək bədii səviyyədə deyil, solğun və zəif çıxmışdır" (4; s.139) Adətən ilk qələm təcrübəsi olan yazılar bədii yaradıcılığın bir oqədər də mürəkkəb olmayan problem məsələlərinə həsr edilməsi ilə yadda qalır. Bu da təbiidir, çünki gənc müəllifin birdən-birə nürəkkəb yaradıcılıq məsələlərinə girişməsi bəzən də səmərəli və effekt doğuran nəticələrlə tamamlanmır, mürəkkəb yaradıcılıq problemləri ilə bağlı irəli sürülən mülahizələrində bəzən kifayər qədər əsaslandırılmayan, mübahisə doğuran fikirlər də irəli sürülür. Ancaq Bəkir Nəbiyevin birdən-birə epik şeirlə bağlı yaradıcılıq problemlərini belə bir cəsarət və professionallıqla elmi münasibət hədəfi seçməsi bu mənada doğrudan da istisna hal kimi dəyərləndirilə bilər.Biz yuxarıda xatırlatdıq ki, Bəkir Nəbiyevin elmi irsində uşaq ədəbiyyatına həsr olunan yazılara da əhəmiyyətli dərəcədə yer ayrılır. Maraq doğuran bir cəhət də odur ki, tənqidçinin uşaq ədəbiyyatının real vəziyyətinə münasibət bildirmək, onun yeni yaranan nümunələrini təhlil süzgəcindən keçirmək cəhdi də elə bu dövrdən başlayaraq fəal bir məcraya yönəlir. Bu baxımdan Bəkir Nəbiyevin "Azərbaycan" jurnalında dərc olunan "Dörd uşaq kitabı haqqında" məqaləsi qaldırılan yaradıcılıq problemlərinin aktuallığı ilə diqqəti cəlb edir. Müəllif əsasən1953-cü ildənəşr olunan üç uşaq ədəbiyyatı nümunəsini və 1954-cü ildə balaca oxucuların ixtiyarına verilən bir kitab barədə öz təəssüratlarını qələmə alaraq geniş içtimaiyyətin diqqətinə çatdırmağa çalışır. Doğrudur, nəşr olunan uşaq ədəbiyyatı nümunələrinin hamısı şeir kitablarından ibarət olmasa da, müəllif Əliağa Kürçaylı, Novruz Gəncəli və Qabil İmamverdiyev kimi odövrün gənc şairlərinin bu sahədəki yaradıcılığını konkret nümunə və faktlar əsasında həhlil etməyi qarşıya bir məqsəd kimi qoyurdu. İşıq üzü görən bu kitabların ümumi məziyyətlərindən bəhsedərkən gənc tənqidçinin gəldiyi qənaətlər müəyyən dərəcədə özünün obyektivliyi və prinsipiallığı ilə maraq kəsb edir.

Müəllifin haqqında bəhs edilən məqaləsindən bir nəzəri başlanğıc kimi gətirilən aşağıdakı mülahizələr bu baxımdan səciyyəvidir: "Bu kitablar uşaqların biliyini və görüş dairəsini genişləndirir, zəngin və qaynar həyatımızın müxtəlif sahələri, rəngarəng təbiət hadisələri haqqında onlara maraqlı məlumatlar verir, uşaqlarımızda vətənə, xalqa məhəbbət, kollektivçilik ruhu, əməyə sevgi, doğruçuluq, dostluq və yoldaşlığa sədaqət kimi nəcib hisslər tərbiyə edir."(5)Bəkir Nəbiyev uşaq ədəbiyyatının qarşısında duran mühüm yaradıcılıq problemlərini belə bir meyar və prinsiplərdən çıxış edərək təhlil edir, uşaq psixologiyasını, onun maraq və düşüncə tərzinin bədii mətndə nəzərə alınmasını əsas şərtlərdən biri dəyərləndirirdi.

Bir tənqidçi kimi Bəkir Nəbiyevin bu dövrdə qələmə aldığı məqalələr Osman Sarıvəlli, Səməd Vurğun, Rəsul Rza, Əhməd Cəmil, Zeynal Xəlil kimi kifayət qədər yaradıcılıq təcrübəsinə malik olan şairlərlə yanaş, şeirə müharibə və müharibədən sonrakı illərdəgələn şairlərdən Hüseyn Hüseynzadənin (Hüseyn Arifin), Nəbi Babayevin (Nəbi Xəzrinin), İslam Səfərlinin, Mədinə Gülgünün, Adil Babayevin, Əli Kərimin,Xəlil Rzanın poeziyasının fərdi və üslubi keyfiyyətləri barədə yetərincə təsəvvür yarada bilir. Bəkir Nəbiyevin keçən əsrin 50-ci illərindəki tənqidçilik fəaliyyətində diqqəti cəlb edən mühüm məziyyətlərdən biri də yenicə işıq üzü görən poeziya nümunələrində ənənə və novatorluq prinsiplərinin aktual bir problem kimi diqqət mərkəzində saxlanılmasıdır.Belə bir ədəbi-nəzəri kateqoriyadan çıxış edərək o dövrün gənc şairlərinin poetik axtarışlarında tarixən təşəkkül tapan yaradıcılıq ənənələrinin davam və inkişafını, həm də dövrün tələbindən irəli gələnyenilik və müasirlik hissiniprinsipial meyar kimi ön plana çəkirdi. Bəkir Nəbiyevin bu illərə təsadüf edən tənqidçilik fəaliyyətində sosioloji, bəzi hallarda isə siyasi-ideoloji cəbhədən çıxış etmək meyilləri də özünü açıq-aydın büruzə verirdi. Belə bir yanaşma tərzi bəzən dətəhlilə cəlb edilən poetik mətnlərin mahiyyət və məğzi ilə də üzvi surətdə əlaqələndirilirdi.

Məlum həqiqətdir ki, hər bir dövrün ədəbi düşüncə və sənətkar qarşısına qoyduğu tələb və məhdudiyyətlər zaman-zaman bu sahədə süni maneə və əngəllər yaratmış, bədii yaradıcılığın azad fikir demokratizmi şəratində geniş inkişafına imkan yaratmamışdır. Bu mərhələdəsiyasi-ideoloji qəliblər digər həmkarları kimi Bəkir Nəbiyevin də tənqidi mühakimələrində özünü nümayiş etdirir ki, bu, bir tərəfdən dövrün ideoloji təsisat sisteminin sənət və yaradıcılıq sahəsinə xüsusi nəzarətindən irəli gəlirdisə, digər tərəfdən eyni aqibəti yaşayan mətbuat orqanlarının publisistik yönümlü yazılara daha artıq dərəcədə üstünlük verməsi ilə sıx bağlı bir məsələ idi.(Bax: 6). Sonrakı yaradıcılıq mərhələlərində Bəkir Nəbiyevin ədəbi prosesi müntəzəm surətdə izləyən bir tənqidçi kimi fəaliyyətində analitik təhlil, bədii mətni bütöv bir struktur kimi geniş izah və şərh etmək cəhdi gercəkləşir ki, bu da cəmiyyət həyatında baş verən siyasi-ideoloji amirlik prinsipinin "yumşalma" prosesi ilə əvəz olunması ilə sıx bağlı bir məsələ idi.

Ədəbiyyat siyahısı

Salmanov Ş. Tənqidçi və ədəbi proses (Akademik Bəkir Nəbiyevin ədəbi-elmi fəaliyyəti və tənqidi görüşləri, Redakoru: prof. Yaşar Qarayev, Bakı,"Səda" nəşriyyatı, 154 s.

Cəfərov N. Akademik Bəkir Nəbiyevin yaradıcılıq yolu, Seçilmiş əsərləri, Beş cilddə, İkinci cild, Elmiredaktoru: akad. İsa Həbibbəyli, Bakı, "Elm" nəşriyyatı, 2007, səh.189-190, 352 s.

Nəbiyev B. "Ana" poeması // "Ədəbiyyat qəzeti", 15 fevral 1952-ci il

Nəbiyev B. " Yadigar üzük"// "Azərbaycan" jurnalı, 1953,№12

Dörd uşaq kitabı haqqında // "Azərbaycan" jurnalı, 1954, № 8

Akademik Bəkir Nəbiyev haqqında soraq kitabı. Bakı: Nafta-Press, 2010, 388s.

Açar sözlər: Sənətkarlıq məsələləri, müasirlik duyğusu, ənənə və novatorluq, estetik ideal, mövzu və ideya axtarışları

Бекир Набиев как поэтический критик

(на основе поэтического опыта 50-х гг. прошлого века)

Резюме

В статье рассматривается критическая деятельность академика Бекира Набиева в 50-е гг. прошлого столетия, которая является отражением творческих идейно-тематических поисков поэтов – представителей разных поколений и стилей

в азербайджанской поэзии. В качестве основного достижения литературно-критической деятельности Бекира Набиева отмечается стремление критика обобщить поэтическое наследие не только признанных мастеров слова, но и тех молодых и талантливых поэтов, которые пришли в поэзию в военные и послевоенные годы. Объективность и принципиальность суждений Бекира Набиева, его стремление изобразить литературные факты и явления на фоне жизненных реалий интерпретируются как главные качества, характеризующие индивидуальность критика.
Ключевые слова: вопросы творчества, ощущение современности, традиция и новаторство, эстетический идеал, идейно-тематические поиски

Bekir Nabiyev as a critic of poetry
(based on the poetic experience of the last century's 50s)
Summary

The article deals with the Academician Bekir Nabiyev's critical activities in the last century's 50s., which is a reflection of the creative ideological and thematic search for poets – representatives of different generations and styles in Azerbaijani poetry. The critics strive to summarize the poetic legacy of not only well-known masters of the word, but also those young and talented poets who came to poetry in the war and postwar years is underlined as one of the main achievement of the literary-critical activity of Bekir Nabiyev. The objectivity and integrity of the judgments of Bekir Nabiyev, his desire to portray literary facts and phenomena against the backdrop of life realities are interpreted as the main qualities characterizing the individuality of the critic.
Keywords: questions of creativity, a sense of modernity, tradition and innovation, aesthetic ideal, ideological and thematic search

Rəyçi: fil.f., d. Aynurə Muctafayeva